ADB

# 2030-CU İLƏDƏK STRATEGİYA

**FIRAVAN**
**INKLÜZİV**
**MÖHKƏM**
**DAVAMLI**

ASİYA VƏ SAKİT OKEAN REGİONU

# AİB ÜÇÜN YENI BIR STRATEGIYA NƏDIR?

Asiya və Sakit okean regionu, son yarım əsrdə yoxsulluğun azaldılması və iqtisadi artımda böyük irəliləyişə nail olmuşdur, lakin bitməmiş inkişaf gündəmləri var. 2030-cu ilədək Strategiya 2030-cu ilə qədər AİB-in regionun dəyişən ehtiyaclarına səmərəli cavab verməsi istiqamətində səylərini müəyyən edir.

## DƏYIŞƏN MƏNZƏRƏ

### İqtisadi ağırlıq mərkəzinin yerdəyişməsi

2000-cı il
Ümumdünya ÜDM
(cari $)
**$33.6 trilyon**
**25%**

2016-cı il
Ümumdünya ÜDM
(cari $)
**$75.8 trilyon**
**33%**

Asiya və Sakit okean son onilliklərdə ən sürətlə böyüyən bölgə olmuşdur.

### Böyük infrastruktur tələbləri

**İllik 1.7 trilyon dollar**



bölgədə infrastruktur boşluqlarını doldurmaq üçün 2016-2030 illəri arasında ehtiyac duyulur.

### Qalan yoxsulluq və bərabərsizlik

**3 nəfərdən 1-i**
Regionda gündə 3.20 dollardan az yaşayır

. . . və bu **1.24 milyard insandır.**

### Sürətli şəhərləşmə

Asiya və Sakit okean regionunda şəhər əhalisinin payı artmaqdadır..

| 1950-ci illər | 2018 | 2030 |
|---|---|---|
| 20% | 48% | 55% |

### Texnoloji irəliləyişlər

səmərəliliyi artırır, həm də gələcək işlərə təsir göstərir.



### Gənclər və yaşlanma əhalisi.

Bəzi ölkələr sürətli yaşlanır: bölgədə yaşlıların payının artması gözlənilir.

**8%** 2016

**18%** 2050

Digər ölkələrdə gənc əhali mövcuddur və bu, həm imkanlar, həm də problemlər yaradır.

**30 yaşa qədər insanların 54%-i** Asiya və Sakit okean ölkələrində yaşayır

### Iİqlim dəyişikliyi, ekoloji stress və təbii fəlakətlər



**10 ölkənin 7-si**
dünyanın ən yüksək qiymətləndirilmiş fəlakət riskinə malik olan AİB-in inkişaf edən üzv ölkələridir
*(Banqladeş, Kamboca, Filippin, Solomon Adaları, Timor-Leste, Tonqa, Vanuatu).*

# AİB-İN 2030-CU İL PERSPEKTİVİ NƏDİR?

AİB-in perspektivi, həddindən artıq yoxsulluğun aradan qaldırılması üçün səylərini davam etdirərkən firavan, inklüziv, möhkəm və davamlı Asiya və Sakit okean regionuna nail olmasıdlr.

---

**FIRAVAN**
**INKLÜZİV**
**MÖHKƏM**
**DAVAMLI**
ASİYA VƏ SAKİT OKEAN REGİONU

---

AİB regionun ən yoxsul və ən həssas ölkələrini prioritetləşdirməyə davam edəcəkdir.

**AİB əsas prioritet kimi infrastruktura diqqət yetirmək və təhsil, səhiyyə və sosial müdafiə kimi sahələrdə müdaxilələrin genişləndirilməsini davam etdirəcəkdir.**

# ADB DƏYƏRİNİ NECƏ ARTIRACAQ?

AİB-in dəyərini artıra biləcək vasitələr

**MALİYYƏ**
Digər mənbələrdən vəsaitləri səfərbər edərkən öz maliyyələş məsini təmin etmək

**BİLİK**
Yerli şəraitə uyğun praktiki dəyərlərə diqqət ayırmaq, dərsləri müəyyənləşdirmək və yaxşı tətbiqləri təkrarlamaq

**TƏRƏFDAŞLIQ**
Müxtəlif tərəfdaşlar və maraqlı tərəflər arasında dialoq və əməkdaşlığın təşviqi

# AİB-İN ƏMƏLİYYATLARINI HANSI PRİNSİPLƏR İSTİQAMƏTLƏNDİRƏCƏK?

### ÖLKƏYƏ YÖNƏLMİŞ YANAŞMANIN İSTİFADƏ EDİLMƏSİ

Hər bir inkişaf etməkdə olan üzv ölkənin (İÜÖ) spesifik inkişaf ehtiyacları və çağırışları üçün xüsusi həllər təmin etmək

### YENİLİKÇİ TEXNOLOGİYANIN İSTİFADƏSİNİN TƏŞVİQİ

Əməliyyatlara dair qabaqçıl texnologiyalardan istifadə və İÜÖ-lərə potensialın artırılmasını təmin etmək yollarını proaktiv şəkildə axtarmaq

### İNTEGRASİYA EDİLMİŞ HƏLLƏRİN TƏMİN EDİLMƏSİ

Bir sıra sektor və mövzularda dövlət və özəl sektor əməliyyatlarının birləşməsi yolu ilə təcrübəni birləşdirmək

---

# AİB MÜXTƏLİF MÜŞTƏRİLƏRİN EHTİYACLARINI NECƏ HƏLL EDƏCƏK?

AİB bu qrup ölkələrə fərqli yanaşmalar tətbiq edəcəkdir:



### Kövrək və münaqişələrdən təsirlənən yerlər

- institusional inkişaf və idarəetmə islahatları
- əsas infrastruktur və sosial xidmətlər
- hədəflənmiş sosial yardım
- davamlılıq qurma səyləri, münaqişələrin
- səbəblərini həll etmək, barışıq və yenidənqurmağı təşviq etmək



### Kiçik adaların olduğu inkişaf etməkdə olan ölkələr

- iqlim dəyişikliyinə uyğunlaşma, ekoloji davamlılıq və fəlakət riskinin idarə edilməsi
- əlaqə və çıxış
- institusional gücləndirmə
- biznes mühitinin yaxşılaşdırılması və özəl sektora yönəldilən artımı təşviq etmək üçün səylər



### Aşağı gəlirli və aşağı orta gəlirli ölkələr

- yaşıl və inklüziv infrastruktur
- sosial xidmətlər və sosial müdafiə
- davamlı şəhərləşmə
- struktur transformasiya və ictimayi sektor islahatları
- özəl sektorun inkişafı və daxili resursların səfərbər edilməsi



### Yuxarı orta gəlirli ölkələr

- kapital bazarlarına çıxış
- qurumların möhkəmləndirilməsi və nümayiş layihələrinin hazırlanması
- özəl sektor əməliyyatları
- regional ictimai mallar, iqlim dəyişikliyi, urbanizasiya, regional əməkdaşlıq, Inteqrasiya və yaşlanma

# AİB HANSI FƏALİYYƏT SAHƏLƏRİNƏ DİQQƏT YETİRƏCƏK?

AİB yeddi əməliyyat prioritetinə üstünlük verəcəkdir:

**Qalan yoxsulluğun aradan qaldırılması və bərabərsizliyin azaldılması**

insan inkişafı və social inteqrasiya, keyfiyyətli iş, təhsil və təlim, daha yaxşı sağlamlıq, sosial müdafiə

**İqlim dəyişikliyinə qarşı mübarizə, Iqlimə və fəlakətə qarşı davamlılıq yaratmaq və ekoloji davamlılığı artırmaq**

istixana qazı emissiyalarını azaltmaq, iqlim və fəlakətin davamlılığına yanaşma, ekoloji davamlılıq, su-ərzaq-enerji təhlükəsizliyi əlaqələri

**Kənd inkişafı və ərzaq təhlükəsizliyinin təmin edilməsi**

bazar əlagəsi və kənd təsərrüfatı dəyər zənciri əlagələri, kənd təsərrüfatı məhsuldarlığı və ərzaq təhlükəsizliyi, qida təhlükəsizliyi

**Regional əməkdaşlıq və Inteqrasiyanın təşviqi**

əlaqə və rəqabət qabiliyyəti, regional ictimai mallar, maliyyə sektorunda əməkdaşlıq, subregional təşəbbüslər

**Gender bərabərliyində irəliləyişlərin sürətləndirilməsi**

gender bərabərliyi üçün miqyaslı dəstək; qadınların iqtisadi gücləndirilməsi; insan inkişafında gender bərabərliyi, qərar vermə və liderlik; qadınlar üçün vaxt yoxsulluğunu azaltmaq; qadınların şoklara qarşı dayanıqlılığının gücləndirilməsi

**Şəhərləri daha dinamik hala gətirmək**

inteqrasiya edilmiş həllər, şəhərlərin maliyyələşdirilməsi, inklüziv və iştirakçı şəhər planlaması, iqlimin dayanıqlığı və fəlakət idarəçiliyi

**İdarəetmə və institusional bacarıqların gücləndirilməsi**

ictimai idarəetmə islahatları və maliyyə davamlılığı, çatdırılma xidməti, potensial və standartlar

## BƏZİ MƏQSƏDLƏR...

AİB-in həyata keçirdiyi əməliyyatların **ən azı 75%-i** (dövlət zəmanəti olan və olamayan əməliyyatlar da daxil olmaqla 3 il müddətinə) 2030-cu ilədək gender bərabərliyini təmin edəcəkdir.

AİB-in həyata keçirdiyi əməliyyatların ən azı 75%-i (dövlət zəmanəti olan və olamayan əməliyyatlar da daxil olmaqla 3 il müddətinə) 2030-cu ilədək iqlim dəyişikliyinin təsirinin azaldılmasına və adaptasiyasına dəstək verəcək. AİB-in öz resurslarından iqlim maliyyələşməsi **2019-cu ildən 2030-cu ilə kimi olan dövrdə 80 milyard dollara** çatacaq.

Bundan əlavə, AİB diqqət mərkəzində olacaq:

## ÖZƏL SEKTOR ƏMƏLİYYATLARININ GENİŞLƏNDİRİLMƏSİ

- özəl sektor əməliyyatlarının əsas məqsədi kimi inkişafın təsirini davam etdirmək
- gəlirlilik və ticarət davamlılığını təmin etmək
- yeni və sərhəd bölgələri bazarlarında genişləndirmək və diversifikasiya etmək

## MALİYYƏ RESURSLARININ STİMULLAŞDIRILMASI VƏ SƏFƏRBƏR EDİLMƏSİ

- çoxtərəfli, ikitərəfli və özəl sektorun tərəfdaşları ilə əməkdaşlığı gücləndirmək
- ticarət və imtiyazlı mənbələrdən maliyyə axtarma
- dövlət-özəl tərəfdaşlıqlardan istifadə etmək, İÜÖ-lərdə biznes mühitini yaxşılaşdırmaq və İÜÖ-lərin daxili resurslarının səfərbər olunmasını gücləndirmək

## BİLİK XİDMƏTLƏRİNİN GÜCLƏNDİRİLMƏSİ

- AİB-in bilik təminatçısı kimi rolunu gücləndirmək
- ən müvafiq məlumat məhsulları və xidmətləri istehsal etmək üçün İÜÖ ilə sıx əməkdaşlıq etmək
- proaktiv şəkildə araşdırma aparmaq, yüksək keyfiyyətli siyasətlə bağlı məsləhətlər vermək və İÜÖ-lərin institusional potensialını gücləndirmək
- bilik yaratmağı, təşkilat və region daxilində paylaşmağı təşviq etmək.

**BƏZİ MƏQSƏDLƏR . . .**

AİB-in özəl sektor əməliyyatları **2024-cü ilə qədər sayca AİB əməliyyatlarının üçdə birinə çatacaq.**

# AİB DAHA GÜCLÜ,DAHA YAXŞI VƏ DAHA SÜRƏTLİ NECƏ OLACAQ?

Daha güclü, daha yaxşı və daha sürətli olmaq üçün AİB

- sağlam bir resurs bazası təmin edəcək
- insan resurslarını artıracaq
- ölkədə rezident nümayəndəliklər vasitəsilə güclü bir iştrakı təmin edəcək
- məhsullarını və alətlərini inkişaf etdirəcək
- biznes proseslərini müasirləşdirəcək və əməliyyat səmərəliliyini artıracaq
- rəqəmsal cevrilməni təşviq edəcək
- vaxtında və dəyərində-qiymətli satınalmalara nail olacaq
- ölkə sistemlərinin istifadəsini artıracaq
- qeyri-hökumət təşkilatları ilə əməkdaşlığı gücləndirəcək

## 2030-CU İLƏDƏK FƏALİYYƏT STRATEGİYASI

**AİB 2030-cu ilədək Strategiyasını işə salmaq üçün**

- yeddi prioritet sahənin əməliyyat planlarını hazırlayacaq
- ölkə səviyyəsində prioritetləri daha da təkmilləşdirmək üçün ölkənin tərəfdaşlıq strategiyasından istifadə edəcəkdir
- iş proqramını və büdcə çərçivəsi prosesini gücləndirəcək, illik fəaliyyət planını  və resursları əməliyyat prioritetləri ilə uyğunlaşdıracaq
- yeni bir korporativ nəticələr bazası hazırlayacaq
- nəticələr çərçivəsini istifadə edərək, hər il institusional effektivlik barədə hesabat verməyə davam edəcəkdir

AİB 2030-cu ilədək strategiyasını effektiv şəkildə həyata keçirmək üçün təşkilat daxilində bilik və təcrübəni bir araya gətirərək "Bir AİB" anlayışını tətbiq edəcəkdir.

Tam sənədi **www.adb.org/strategy2030** ünvanından yükləyin

**AİB 2030-cu ilədək uzunmüddətli birgə maliyyələşdirmənin əhəmiyyətli dərəcədə artırılmasını hədəfləyir**, özəl sektorun fəaliyyətinə maliyyələşdirmədə hər 1 dolları uzunmüddətli birgə maliyyələşdirmə ilə 2,50 dollar təşkil edir.

## 2030-CU ILƏDƏK STRATEGIYA

***Firavan, İnklüziv Möhkəm və Davamlı Asiya və Sakit okean Regionuna nail olmaq***

Asiya və Sakit okean ölkələri son 50 ildə yoxsulluğun azaldılması və iqtisadi artımda böyük uğurlar əldə ediblər. Asiya İnkişaf Bankı (AİB) regionun əhəmiyyətli transformasiyasında əsas tərəfdaş olub və inkişafın növbəti mərhələsində regiona xidmət etməyə davam edir. 2030-cu ilədək Strategiya AİB-in regionun dəyişən ehtiyaclarına səmərəli cavab verməsi istiqamətində səylərini müəyyən edir. 2030-cu ilədək Strategiyasına əsasən, AİB həddindən artıq yoxsulluğun aradan qaldırılması və firavan, inklüziv, möhkəm və davamlı bir regiona perspektivini genişləndirmək üçün səylərini davam etdirir.

## Asiya İnkişaf Bankı haqqında

AİB həddindən artıq yoxsulluğun aradan qaldırılması üçün səylərini davam etdirərkən firavan, inklüziv, möhkəm və davamlı Asiya və Sakit okean regionuna nail olmasına sadiqdir. 1966-cı ildə yaradılmış bu təşkilatın 67 üzvü var və onların 48-i regionda yerləşir. İnkişaf etməkdə olan üzv ölkələrinə yardım etməklə bağlı AİB-in əsas alətləri siyasi dialoq, kredit vəsaitləri, kapital sərmayələri, zəmanətlər, qrantlar və texniki yardımdan ibarətdir.

© 2018-ci il Asiya İnkişaf Bankı
Bütün hüquqlar qorunur
http://www.adb.org/publications/corrigenda
Nəşr sayı ARM189485-3